*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 495-501*
https://doi.org/10.62837/2024.6.495

**XARİQƏ HÜSEYNOVA**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Harika_11@mail.ru

# FÜZULİ POEZIYASINDA EŞQ, MƏHƏBBƏT VƏ GÖZƏLİN VƏSFİ

***Açar sözlər:*** *poeziya, eşq, gözəl, qəzəl, janr*
***Key-words:*** *poetry, love, beauty, ghazal, jenre*

Tək ölkəsinin deyil, Azərbaycanın hüdüdlarını aşarak öz yaradıcılığı ilə şöhrət qazanmış Məhəmməd Füzuli (1494 -1556) qələminin qüdrəti xüsusiliklə lirikada görünür. Lirikaya-şeir janrına maraq göstərən şair çox gənc yaşlarında yaradıcılığa başlamış və qəzəllərinin əksəriyyətini gənc yaşlarında qələmə almışdır. Görkəmli tədqiqatçı, Füzuli yaradıcılığına yaxından bələd olan Mir Cəlal Paşayev yazır: "Şairin qəzəl janrına xüsusi bir məhəbbəti, ilham qüdrəti vardır. Bu janr geniş yayıldığına, çətinliyinə, hünər tələb etməsinə, ədəb əhlinə tez çatmasına, kütləviliyinə və nəhayət sevgi janrı olmasına görə başqa janrlardan üstün tutur:

*Qəzəldir səfabəxş-əhli-nəzər.*
*Qəzəldir küli-busitani-hünər...*
*Qəzəl de ki, məşhuri-dövran ola,*
*Oxumaq da, yazmaq da asan ola.*" [1, 116]

Məhz buna görədir ki, şair Yaxın Şərqdə lirikanın-qəzəlin ustadı hesab olunmuşdur. Görkəmli tədqiqatçı, akademik Həmid Araslı Füzulinin lirikaya verdiyi önəmə dayanaraq yazır: "Füzulinin lirik şeirə, qəzəl yazmağa xüsusi əhəmiyyət verməsi təsadüfi deyildir. Bu, hər şeydən əvvəl, sənəti özünün mütərəqqi görüşlərini geniş xalq içərisində yaymaq, ürək sözlərini xalq kütlələrinə çatdırmaq üçün sənətin kütləvi bir növündən istifadə etmək təçəbbüsündən irəli gəlmişdir" [2, 112] Burdan belə bir nəticəyə gəlmək olar ki, böyük Füzuli daxili aləmin təzahürü olan hissi, həyəcanı, urəyin qubarlığını məhs qəzəl janrında aydın şəkildə təzahür etmişdir. Biz Həmid Araslı tədqiqatına müraciət edəndə bunun canlı şahidi oluruq. Alim bu haqda yazır: "Füzuli məhəbbət mövzusunda yazdığı kiçik həcmli lirik əsərləri üçün qəzəl şəklinin daha əlverişli olduğunu dəfələrlə göstərmişdir.

*Qəzali-qəzəl seydi asan deyil,*
*Qəzəl münkiri əhli-irfan degil.*
*Qəzəl bildirir şairin qüdrətin,*
*Qəzəl artırır nazimin şöhrətin.*

*Könül gərçi əş'arə çox rəsm var,*
*Qəzəl rəsmini et cümlədən ixtiyar*
*Ki, hər məhfilin ziynətidir qəzəl,*
*Xiridməndlər sən'ətiidir qəzəl.*

Bu misralardan aydındır ki, Füzuli şeir növləri içərisində qəzəl janrını başqalarından bir sıra müsbət xüsusiyyətlərinə görə daha çox qiymətləndirir." [2, 113]

Füzuli təkcə Azərbaycan ədəbiyyatında deyil, bütün Şərq ədəbiyyatında əsərləri dönə-dönə köçürülən, yaxud nəşr olunan, çox sevilən və çox oxunan ən tanınmış sənətkarlardandır. XX yüzillikdə Azərbaycanda, Türkiyədə, eləcə də başqa ölkələrdə Füzulinin həyat və yaradıcılığı, dili və üslubu haqqında dəyərli tədqiqat əsərləri yazılmışdır. M.F.Köprülü, Ə.Qaraxan, Ə.Tərlan V.M.Qocatürk, H.Mazıoğılu, Ə.Gölpınarlı, H.Araslı, Y.Bertels, Mir Cəlal, M.Quluzadə, M.C.Cəfərov, Ə.Cəfər, Ə.Dəmirçizadə, H.Mirzəzadə, Ə.Mirəhmədov, F.Qasımzadə, M.Adilov, T.Hacıyev, A.Vəfalı, Ə.Səfərli, S.Əliyev, A.Rüstəmova, V.Feyzullayeva və digər alimlərin dəyərli monoqrafiyaları, silsilə məqalələri bu gün də elmi dəyərini saxlamaqdadır.

Görkəmli ədəbiyyatşünas, akademik Həmid Araslı Füzuli yaradıcılığında məhəbbət mözusuna belə münasibət bildirir: "Füzulinin fars dilində yazılmış qəzəlləri içərisində də məhəbbət mövzusu mühüm yer tutur. Belə şeirlərdə qəzəl janrının tələbləri əsasında hərəkət etməli olan şair əsasən insana olan məhəbbəti, real həqiqi insan məhəbbətini tərənnüm edir və yeri gəldikcə beytlərarası öz dövrünün ictimai-siyasi hadisələrinə qarşı münasibətini də bildirir." [3, 5] Biz Füzuli yaradıcığını öyrəndikcə onun zənginliyini dərk edir və belə qənaətə gəlirik ki, Füzulu eşqi, Füzuli məhəbbəti bir mənalı deyildir. Akademik Həmid Araslı bu haqda deyir: "Ana dilində yazdığı qəzəllərdə olduğu kimi, burada da şairin məhəbbət anlayışı çox genişdir və onun bütün mənəvi aləmini ifadə edən əsas amildir. Füzuli gözəlliyə, ayrı-ayrı gözəllərə, dosta, yoldaşa, ailəyə, təbiət gözəlliklərinə, ilahiyyata – hər şeyə məhəbbət ibarələrilə müraciət edir, öz səmimi duyğularını aşiq dililə ifadəyə çalışır". [3, 5]

Məhəmməd Füzuli iztirablı həyat tərzi keçirsə də eşq, məhəbbət ruhu onu heç vaxt tətk etməmişdir, əksinə bu çətinlik ona daha da ruh vermiş, yaradıcılığının zənginliyinə səbəb olmuşdur. Şair eşqə bağlılığını tərənnüm edərək yazır:

*Ey Füzuli, bu qədər eşqə giriftar olma,*
*Tez xilas et özünü, qalmayasan zillətdə.* [4, 27]

Məhəmməd Füzuli yaradıcılığında Vətənə məhəbbət tərənnüm edən əsərləri də mühüm yer tutur. Vətən eşqini, Vətənə məhəbbətini qabarıq şəkildə qələmə alan şair yazır:

*Eşq sərgəştəsiyəm, seyli-sirişk içrə yerim,*
*Bir hübabəm ki, həvadən doludur pirəhənim.*

*Bülbüli-ğəmzədəyəm, bağü bəharım sənsən,*
*Dəhənü qəddü rüxün, qönçəvü sərvü səmənim.*

*Edəməm tərk, Füzuli, səri-kuyin yarın,*
*Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!* [4, 216]

Burda şair təkrirdən istifadə edərək əsərin emosional təsirini artırmış və Vətən sevgisini bütün sevgidən üzstün tutduğunu nəzərə çatdırmışdır.

Bəzi mənbələrdə isə dörd rəqəmi Şərq fəlsəfi düşüncəsində bitkinlik, bütövləşmək, tamamlanmaq anlamında işlədilirdi. Tədqiqata görə Füzuli könlünü əsir edən gözəlin yaşadığı küçəni Vətənin ən doğma yeri sayır, mənəvi aləmi ilə maddi dünyasının bütövlüyünü burada tapır, bu müqəddəs məkanı bitkinlik yuvası kimi dördəm təkrirlə "Vətən" elan edirdi. Filoloq - tədqiqatçıların fikrinə görə, burada birinci vətən ana bətni, ikinci vətən beşik, üçüncü vətən doğulub-yaşadığın torpaq, nəhayət, dördüncü vətən isə axirət ünvanı məzardır deyə bildirirlər. Lakin şair burada təkrirdən istifadə edərək əsərin emosional təsirini artırmış, Vətənə sevgisini, Vətənə məhəbbətini bütün sevgidən üstün tutduğunu nəzərə çatdırmışdır.

Həqiqətən də "Füzuli şeirinin qüdrət mənbəyi, məhəbbətdir. Məhəbbət Füzuli şeirlərinə qol-qanad verib, onu ölkələrdən ölkələrə, qitələrdən-qitələrə gəzdirən əsas amildir." [2, 115]

Yaradıcılığının çox hissəsini ustadın gözələ, qadına vurğunluğu – eşq, məhəbbət, sevgi mövzusunda yazdığı qəzəllər təşkil edir. Buna misal olaraq hər kəsin yeri gəldikcə söylədiyi, dillər əzbəri olmuş bir nümunəyə nəzər yetirək:

*Məndə Məcnundan füzun aşiqlik istedadı var,*
*Aşiqi sadiq mənəm, Məcnunun yalnız adı var.*

*Nola qan tökməkdə mahir olsa çeşmim mərdümi,*
*Nütfeyi-qabildürür, qəmzən kimi ustadı var.*

*Qıl təfaxür kim, sənin həm var mən tək aşiqin,*
*Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var.* [4, 123]

Əlbəttə təkcə Məhəmməd Füzuli deyil, demək olar ki, bütün lirik janra müraciət edən ustad sənətkarlar da öz yaradıcılıqlarında bu mövzuya xüsusi yer ayırmışlar.

Yaxın və Şərq ədəbiyyatında xüsusi yeri olan Nizami Gəncəvi də lirik şeirləri ilə seçilmişdir. O eşqin nə demək olduğunu oxucularına belə çatdırır:

*"Eşqdir mehrabı uca göylərin,*
*Eşqsiz, ey dünya, nədir dəyərin?!*
*Eşqin qulu ol кi, doğru yol budur,*
*Ariflər yanında, bil, eşq uludur.*
*Bu dünya eşqdir, qalan fırıldaq,*
*Eşqdən başqa şey boş bir oyuncaq.*
*Eşqsiz olsaydı xilqətin canı*
*Diriliк sarmazdı böyüк cahanı.*
*Eşqsiz bir adam bir neydir - qırıq,*
*Yüz canı olsa da, ölüdür artıq.*
*Eşqsiz bu dünya soyuq məzardır,*
*Ancaq eşq evində rahatlıq vardır.*
*Eşqin yanğısından gözəl şey nə var?*
*Onsuz nə gül gülər, nə bulud ağlar"* [5, 67]

İntibah dövrü ədəbiyyatının ən görkəmli ustadlarından biri sayılan Xaqani Şirvaninin də lirikasında vurğunluğun-eşq və məhəbbətin tərənnümü xüsusi yer tutur və şair

*Məhəbbət bir bəladır ki, yoxdur onun dərmanı,*
*Aşiq canı tərk etsə də, ata bilməz cananı.*

*Məhəbbətin zəncirinə bağlanandan, hər gecə,*
*Salar zülfü halqasına qəlbimdəki halqanı.* [6, 492]- deyir

Dahi ustadın yaradıcılıq aləminə səyahət edən görkəmli tədqiqatçı Fuad Qasımzadə Füzuli vurğunluğunu bir fəlsəfə olduğunu qeyd edərək "Qəm karvanı yaxud zülmətdə nur" kitabının "Eşq, məhəbbət fəlsəfəsi" başlığı altında olan tədqiqat işində yazır:

*"Eşqdir hər iki dünyaya ziynət,*
*Eşq ilə dolanır bütün təbiət.*
*Eşqsiz məqsədə yetişmək olmaz*
*Eşqilə tapılar düzlük, həqiqət*

Füzuli yaradıcılığında ən mühüm məsələlərdən biri, bəlkə də birincisi eşqdir, məhəbbətdir. Füzuli bütün şərq ədəbiyyatında qəlb şairi, aşiqanə və lirik hisslər şairi, eşq, məhəbbət şairi kimi tanınmışdır. Eşq Füzuli yaradıcılığının əsas qayəsi, onun ana xəttini təçkil edən mərkəzi məslələrdəndir." [7, 129] Bəli, Füzuli yaradıcılığının mayası eşq, məhəbətlə yoğrulduğunu tək F.Qasımzadə deyil, demək olar ki, bütün tədqiqatçılar bunu dönə-dönə qeyd etmişlər. Klassik ədəbiyyatın görkəmli tədqiqatçılarından Həmid Araslı, Mir Cəlal Paşayev, Mirzağa Quluzadə və başqaları Fuad Qasımadənin bu fikri ilə üzst-üstə düşən yazılara rast gəlirik. Bundan əlavə türk

dünyasının tədqiqatçılarından M.F.Köprülüzadə, A.Qaraxan, K.Kürkçüoğlu, H.Mazıoğlu və başqaları eşqin Füzuli yaradıcılığında əsaslı yer tutduqlarını qeyd etmişlər. Türk alimi Süleyman Nafiz də Füzuli yaradıcılığında vurğunluğunu öz tədqiqatında qeyd etmişdir. Bu haqda F.Qasımzadə yazır: "Türkiyə tədqiqatçılarrından Süleyman Nazif də bu fikirdədir. O da Füzulini əsasən mütləq və platonik eşqi tərənnüm edən şair adlandırır, onun eşq, məhəbbət məsələsində dini-idealist, mistik bir mövqe tutduğunu göstərir." [7, 130-131]

Bəzi fikirlərə əsaslanaraq onu da qeyd etmək istərdik ki, Füzulinin aşiqanə qəzəllərində ümumi gözəl vəsf olunmur, o xüsusi olaraq hansısa gözələ daxildən gələn ülvi hissi qələmə alır. Mir Cəlal Paşayev bunu izah edərək yazır: "Füzulinin aşiqanə şeirlərində ümumiyyətlə gözəl vəsf olunmur. Müəyyən bir məşuqə, aşiqin məhəbbət obyekti olmuş bir qız vəsf olunur. Ona görə də çox zaman bu vəsf, aşiqin məşuqəyə xitabı şəklində verilir:

*...Könül açılır zülfi-pərişanını görcək,*
*Nitqim tutulur qönçəyi-xəndanını görcək...*
***
*...Ləblərin tək ləlü ləfzin tək düri-şəhvar yox,*
*Ləlü gövhər çox, ləbin tək ləli-gövhərbar yox...*
***
*Ey mizaçi-canə çövrün şəhdü şəkkər tək ləzziz,*
*Dəmbədəm zəhri-qəminqəndi-mükərrər tək ləziz...*" [1, 118-119]

Tədqiqatçının qeyd etdiyi bu qəzəllərdən də məlum olur ki, görkəmli "qəlb şairi" [1, 115] Məhəmməd Füzuli "həqiqi gözəli və insanı gözəlliyi vəsf etmir. Bu gözəlliyin konkret obyekti olan qızı, məşuqəni alır, təsvir edir." [1, 119]

***Xariqə Hüseynova***

## XÜLASƏ

## FÜZULİ POEZİYASINDA EŞQ, MƏHƏBBƏT VƏ GÖZƏLİN VƏSFİ

Məqalədə Yaxın-Şərqdə qəzəl janrının ustadı sayılan Azərbaycanın görkəmli şairi Məhəmməd Füzuli yaradıcılığında qələlin yeri göstərilir.Şairin qəzələ verdiyi yüksək dəyər onun hər bir beytində əks olunur. Füzuli əsərlərində şeir formalarından istifadı edərkən qəzələ daha çox üstünlük vermiş, məhz buna görə də, sənətkarın yaradıcılığında qəzəl janrı önəmli yer tutur. Məqalədə böyük şairlə bağlı görkəmli Azərbaycan tədqiqatçılarından H.Araslı, M.C.Cəfərov, Mir Cəlal, M.Qulizadə, Ə.Mirəhmədov, A.Rüstəmova və digər tədqiqatçıların fikirləri yer alır.

Füzulinin istər Azərbaycan və istərsə də fars şeirlərində gözəllik anlayışı, eşq anlayışı sənətkarlıqla tərənnüm edilir. Vətən eşqi, vətənə məhəbbət Füzuli qəzəllərində başlıca yer tutur. Məqalədə Füzuli yaradıcılığında mühüm yer tutan üşqlə bağlı Türk tədqiqatçılarının da fikirləri vurğulanır. Burada türk tədqiqatçılarından M.F.Köprülü, A.Qaraxan, H.Mazıoğlu kimi dəyərli tədqiqatçıların fikirlərinə də münasibət bildirilir. Məqalədə həmçinin böyük ustad Xaqani Şirvaninin və Nizami Gəncəvinin də lirikasında geniş yer alan məhəbbətdən söz açılır.

***Khariga Huseynova***

**SUMMARY**

**LOVE IN FÜZULI'S POETRY AND CHARACTERISTICS OF BEAUTY**

In the article is showsn the place of the ghazal in the work of the famous Azerbaijani poet Muhammad Fuzuli, who is considered the master of the ghazal genre in the Near East. Fuzuli preferred the ghazal while using poetic forms in his works, and that is why the ghazal genre occupies an important place in the poet’s work. The article contains the opinions of prominent Azerbaijani researchers such as H. Arasli, M.J. Jafarov, Mir Jalal, M. Gulizadeh, A. Mirahmedov, A. Rustamova and other researchers about the great poet.

In Fuzuli's Azerbaijani and Persian poems, the concept of beauty and love are glorified with artistry. Love of the country, love for the motherland occupies the main place in Fuzuli's ghazals. The article also highlights the opinions of Turkish researchers about the love that occupies an important place in Fuzuli's work. The views of valuable researchers such as M.F. Koprulu, A. Garakhan, H. Mazıoghlu among Turkish researchers are also reported here. The article also talks about love, which is widely featured in the lyrics of the great poets Khagani Shirvani and Nizami Ganjavi.

***Харига Гусейнова***

**РЕЗЮМЕ**

**ЛЮБОВЬ В ПОЭЗИИ ФЮЗУЛИ И ХАРАКТЕРИСТИКИ КРАСОТЫ**

В статье показано место газели в творчестве известного азербайджанского поэта Мухаммада Физули, считающегося мастером жанра газели на Ближнем Востоке. Физули при использовании поэтических форм в своих произведениях отдавал предпочтение газели, поэтому жанр газели занимает важное место в творчестве художника. В статье изложены мнения о великом поэте видных азербайджанских исследователей Г.Араслы, М.ДЖ.Джафарова, Мир Джалала, М.Гулизаде, А.Мирахмедова, А.Рустамовой и других исследователей.

В азербайджанских и персидских стихах Физули художественно воспеваются понятия красоты и любви. Любовь к Родине, занимает главное место в газелях Физули. В статье также освещены мнения турецких исследователей о Любви, которая играет важную роль в работах Физули. Здесь также изложены мнения таких ценных исследователей, как М.Ф. Кёпрюлюзаде, А. Гарахан, Х. Мазиоглу среди турецких исследователей. В статье также говорится о любви, которая широко представлена в лирике великого мастера Хагани Ширвани и Низами Гянджеви.

## ƏDƏBİYYAT

1. Mir Cəlal Paşayev. Füzuli sənətkarlığı. Bakı, "Maarif" nəşriyyatı, II nəşr, 1994
2. Araslı Həmid. Böyük Azərbaycan şairi Füzuli, Bakı, Azərbaycan uşaqlar və gənclər nəşriyyatı, "Qızıl Şərq",1958
3. Araslı Həmid (Ön söz). Məhəmməd Füzuli. Əsərləri, III cild, Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2005
4. Məhəmməd Füzuli. Əsərləri. I cild, Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2005
5. Nizami Gəncəvi. "Xosrov və Şirin", Bakı, "Lider nəşriyyatı", 2004
6. Xaqni Şirvani. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyatı", 2004
7. Fuad Qasımzadə. Qəm karvanı yaxud zülmətdə nur. Azərbaycan dövlət nəşriyyatı, Bakı, "Qızıl şərq" nəşriyyatı, 1968

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Leyli Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur**